

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 159 (24.296)

*1 sentyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev “Total Energies” şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də “Total Energies” şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.

Görüşdə “Abşeron” yatağında hasilatın başlanılması vurğulandı və layihənin parametrləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Qeyd edildi ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı “Total Energies” şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən “Abşeron” yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparıldı, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olundu. Ölkə ərazisində, o cümlədən Naxçıvanda bərpa olunan enerji layihələrinin həyata keçirilməsi perspektivi və potensialı müzakirə edildi.

**AZƏRTAC**

## S.Ç.Hacıyevin Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 avqust 2023-cü il*

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli Qərarına əsasən Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Tibb Kolleci Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilmişdir. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 1 avqust tarixli Sərəncamına əsasən kolleclərə məxsus əmlak və sənədlərin Naxçıvan Dövlət Universitetinə təhvil-təslim edilməsi üçün komissiya yaradılmışdır.

Nazirlər Kabinetinin 2023-cü il 18 avqust tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Qərarında dəyişiklik edilərək nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı yeni redaksiyada təsdiq edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin 2013-cü il 2 may tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının üzvləri yeni tərkibdə təsdiq edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 22 avqust tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının yeni tərkibi təsdiq edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 23 avqust tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nda dəyişiklik edilərək təqdim edilən sənədlərin “Elektron məhkəmə” informasiya sistemindən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminə ötürülməsi nəzərdə tutulmuşdur.

Nazirlər Kabinetinin 2023-cü il 23 avqust tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası”nda dəyişiklik edilmişdir. Adıçəkilən Qaydaya görə fərdi şəxsi hesab dedikdə “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hər bir sığortaolunana Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən sosial sığorta nömrəsi ilə açılan fərdi uçot məlumatlarının əks olunduğu hesab nəzərdə tutulur.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib

Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” çərçivəsində Sədərək rayonunda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Sədərək rayon prokuroru Valid Mustafayev “Ümummilli Lider Heydər Əliyev Azərbaycanda huquqi islahatların banisidir” mövzusunda çıxış edib. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən hüquqi islahatlar pilləli məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatların yaradılması ilə yanaşı, mövcud hüquq-mühafizə sisteminin fəaliyyəti təkmilləşdirildi. Eyni zamanda beynəlxalq hüquqi prinsiplərə və hüquqyaratmanın müasir, mütərəqqi tələblərinə uyğun qanunlar və məcəllələr qəbul edildi. Azərbaycanda humanizm prinsiplərinə əsaslanan hüquq islahatlarının aparılması, insan hüquq və azadlıqlarının təmin edilməsi, hüquqi dövlətin yaradılması istiqamətində görülən işlər ölkəmizin beynəlxalq hüquq sisteminə uğurla inteqrasiya olunmasına imkan verdi.

Tədbirdə rayon İcra Hakimiyyətinin şöbə müdiri Şərafəddin Şükürov, Yeni Azərbaycan Partiyası Sədərək rayon təşkilatının sədri Arif Qasımov, rayon Təhsil Şöbəsinin müdiri Sirac Qarayev və rayon Mədəniyyət Şöbəsinin müdiri Rəşad İsmayılov müxtəlif mövzularda çıxış ediblər.

## Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin veb-saytı yenilənib

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin elektron informasiya resursu Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir dizaynda yenidən hazırlanaraq *nstat.gov.az* domen adı ilə “AzStateNet” şəbəkəsinə köçürülüb. Veb-sayt funksionallıq və məzmun cəhətdən təkmilləşdirilib, yeni informasiyalarla zənginləşdirilib. Yenilənmiş sayt komitənin fəaliyyətinə uyğun olaraq müasir görünüşü, fərqli strukturu və istifadədə asan olması ilə fərqlənir. Sayt istifadəçi rahatlığı nəzərə alınmaqla responsiv dizaynda hazırlanıb.



Yeni internet səhifəsinin təhlükəsizliyinin təmin olunması, axtarış sistemlərinə uyğunlaşdırılması, qeydiyyatdan keçirilməsi və ön sıralarda tapılması üçün nazirliyin mütəxəssisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib, eləcə də domenə bağlı e-poçt adresi ilə *(info@nstat.gov.az)* təmin olunub. Həmçinin komitənin aidiyyəti əməkdaşlarına istifadəçi idarəetmə panelinin təlimi ilə əlaqədar metodik köməklik də göstərilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Ali təhsil ocağının növbəti uğuru

Naxçıvan Dövlət Universitetinin adı Böyük Britaniyada GMC (General Medical Council) siyahısına daxil edilib. Azərbaycanda tibb təhsili həyata keçirən ali təhsil müəssisəsi kimi Naxçıvan Dövlət Universitetinin adı bu günədək “World Directory of Med Schools” siyahısında olsa da, artıq GMC (General Medical Council) siyahısına da daxil edilib. Universitetin Tibb ixtisasında təhsil alan tələbələrin uzmanlıq təhsillərini xarici ölkələrdə almaları üçün diplomun tanıdılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan artıq Naxçıvan Dövlət Universitetinin diplomu Böyük Britaniyada tanınır və “acceptable overseas qualification” statusu almışdır. Məzunlarımızın xaricdə yüksək ixtisas qazanmaları üçün yeni bir cığır açıldı.

## Ünvanlı dövlət sosial yardımının təyin olunması üzrə bir sıra qanunsuz hallar aşkar edilib

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Daxili nəzarət və təhlil şöbəsi tərəfindən Sədərək rayonunda ünvanlı dövlət sosial yardımı üzrə təyinat aparılan aztəminatlı ailələrə aid müvafiq sənədlərin seçmə üsulla yoxlanılması və mənzil-məişət şəraitlərinin monitorinqinin aparılması zamanı əhəmiyyətli sayda qanuna uyğun olmayan hallar aşkar edilib, “Ünvanlı dövlət sosial yardımı barədə” Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilən “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi” qaydalarının kobud şəkildə pozulması müəyyən edilib.

Aşkar edilmiş hallar üzrə inzibati xəta və ya cinayət əlamətlərinə əsaslı şübhələr olduğunu nəzərə alaraq müəyyən edilən faktlara hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna göndərilib.

**Xəbərlər şöbəsi**

## Quruculuq işləri davam etdirilir

Şərur Sənaye Məhəlləsinin yaradılması muxtar respublikada sənayeləşmə siyasətinin əsas prioritetlərindəndir. Burada 24 istehsal sexi, 6 inzibati və 5 texniki otaqdan ibarət bina və 3 istehsal korpusu inşa olunub. Sənaye məhəlləsinin idarəedici təşkilatına aid otaqların və kiçikölçülü istehsal və xidmət bloklarının yerləşdiyi inzibati bina 895 kvadratmetr ərazini əhatə edir. İstehsal bloklarının ümumi sahəsi isə 1300 kvadratmetrdir. On iki blokdan ibarət birinci istehsal korpusunda ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel olmaqla, 2 mebel müəssisəsi fəaliyyət göstərir. Hər biri ayrı-ayrı sahibkara məxsus bu müəssisələrdə Türkiyə istehsalı olan avadanlıqlardan istifadə edilir. Korpusun digər 6 blokunda isə rayonun mövcud resurslarından istifadə olunmaqla müvafiq sahələr üzrə sahibkarların cəlb edilməsi üçün araşdırmalar aparılır. 2 hissədən ibarət ikinci korpusda məktəbli ləvazimatları, kağız kisə və karton-tara müəssisələri fəaliyyət göstərəcəkdir. Məhəllənin bitki yağları istehsalı sexində quraşdırma işləri davam edir.



**Xəbərlər şöbəsi**

*Ötən həftə tariximizə yeni qürur və şərəf dolu səhifələr yazıldı. Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin cəmi 8 ay ərzində qurub-yaratdığı, dirçəltdiyi müasir və yeni Qarabağı gözlərimiz dola-dola izlədik. Şuşada, Füzulidə, Kəlbəcər və Laçında görülən işlər qəlbimizi fərəh hissi ilə doldurdu. Ölkə başçısı bütün dünyaya müasir Qarabağın timsalında işğalçı ilə qurub-yaradanın kim olduğunu bir daha nümayiş etdirdi. Bu, həm də dünyaya bir mesaj idi ki, 30 ilə yaxındır, torpaqlarımızda təbiətimizə edilən vəhşiliklərə, tarixi abidələrimizə qarşı törədilən barbarlıqlara kor qalan dünya gözünü açsın diqqətlə baxsın və Qarabağın bu gününü heç vaxt unutmasın. Xüsusilə işğalçı dövlətə – Ermənistana havadarlıq edənlər unutmasınlar ki, bu torpaqların əsl sakinləri, sahibləri kim olub və onlar birdəfəlik geri qayıtdılar, əbədi o torpaqlarda yaşayacaqlar. Dövlət başçımızın güclü siyasi iradəsi, ordumuzun böyük qəhrəmanlığı, vətənpərvərliyi və fədakarlığı hesabına əldə etdiyimiz şanlı Zəfərimiz günü-gündən öz bəhərlərini verir, dostlara sevinc bəxş edir, gözü götürməyənlərə, paxıllıq edənlərə isə gözdağı olur. Gəlin, ötən həftəyə geri qayıdaq, o qürur və fərəh dolu anları bir də xatırlayaq.*

# Dirçələn Qarabağ torpaqları, Laçından dünyaya mesajlar

Tarixi dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrimizin yüksək səviyyədə olduğu Özbəkistan Respublikası işğaldan azad edilmiş torpaqlarımızda, xüsusilə Füzulidə tikinti, quruculuq işlərinə öz töhfəsini verir. Avqustun 23-də Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı buna nümunə idi. Açılış mərasimində iştirak edən ölkə başçısı məktəbi hörmətli Şavkat Miromonoviçin Füzuli şəhərinə hədiyyə etdiyini və onun Özbəkistan-Azərbaycan dostluğunun, qardaşlığının bir mərkəzi olacağını bildirdi. 960 şagird yerlik məktəbdə bir vaxtlar bu torpaqdan qaçqın və köçkün düşən vətəndaşlarımızın uşaqları, nəvələri sentyabrın 15-dən etibarən təhsil alacaq, xalqına, dövlətinə layiq vətəndaş kimi yetişəcəklər. Həmin gün Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüş isə otuzillik Vətən həsrətindən sonra öz dədə-baba torpağına qayıdan Füzuli sakinlərinin ən gözəl günü kimi yaddaşa yazıldı. Onlar yaradılan şəraitə, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərə görə dövlət başçısına, eyni zamanda övladlarının təhsil almaları üçün gözəl məktəb tikdirən cənab Prezident Mirziyoyevə təşəkkür etdilər.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin *"Əziz dostum və qardaşım İlham Əliyev ilə Qarabağa, Füzuliyə səfərim ürəyimdəki böyük arzularımdan biri idi. Bu Qələbə üçün qardaşımın çiyninə çətin vəzifələr düşdü. Amma bu vəzifələr onun ədaləti və həqiqəti bərpa etmək üçün göstərdiyi bütün səylərin nəticəsidir ki, qardaşım Qarabağda Qələbə qazandı. Bu Qələbəni ancaq Vətəninin böyük övladı, xalqını sevən belə müdrik Prezident qazana bilər. Belə bir Prezident qardaşımızın varlığından qürur duyuruq"* sözləri iki qardaş və dost xalqın birliyinin, həmrəyliyinin göstəricisi idi. Həmin gün Şuşa şəhəri ilə tanışlıq isə qonaqlarda dərin təəssürat yaratdı.

Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 25-də Kəlbəcər rayonuna səfəri bir çox mühüm amillərlə yadda qaldı. Yadınızdadırsa, Kəlbəcər rayonunu tərk etməsinə əlavə vaxt verilən ermənilər onların olmayan evləri, ağacları yandırmış, təbiətə ziyan vurmuş, törətdikləri barbarlıq və vəhşilik nümunələrini bir daha bütün dünyaya sərgiləmişdilər. Həmin gün ərazini tərk edən düşmən tərəfindən tamamilə dağıdılan "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq", eyni zamanda "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik Stansiyalarının açılışı gələcəkdə Kəlbəcərin "yaşıl enerji" zonasına çevrilməsinə öz töhfəsini verəcək. 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat-saat olan 10 kiçik su elektrik stansiyası mövcud olacaq ki, bu da Kəlbəcərin gözəl təbiətinə bir töhfə, insanların rahat yaşayışı üçün təxirəsalınmaz addımlardan biridir. Həmin gün, ümumilikdə, 855 ailənin məskunlaşması planlaşdırılan Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyuldu və yaradılacaq yüksək səviyyəli şəraitdən sonra isə bu torpağın sakinləri öz doğma yurdlarına qayıdacaqlar. Laçın rayonuna səfər çərçivəsində "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edən dövlətimizin başçısına bildirildi ki, yeni energetika obyektlərinin tikintisi və istismarında yerli sakinlər üstünlük təşkil edir və bu, onların məşğulluğunun təminində mühüm rol oynayır. Həmin gün bir çox müəssisələrin təməlinin qoyulması və açılışı onu göstərdi ki, Laçın rayonuna artıq həyat qayıdıb və laçınlılar öz doğma yurdlarında rahatlıqla yaşayırlar.

Avqustun 26-da Laçın şəhərinin işğaldan tamamilə azad edilməsi günü – "Laçın Şəhəri Günü" böyük təntənə ilə dövlət səviyyəsində qeyd edildi. Şəhidlərimizin, qəhrəmanlarımızın şücaəti hesabına yaşadığımız həmin gün qəlbimiz bir daha onlara qarşı böyük minnətdarlıq hissləri ilə doldu, xalq olaraq böyük qürur və fərəh hisslərini yaşadıq. "Laçın Şəhəri Günü"ndə rayonun Zabux kəndinə sakinlərin köçürülməsi isə tariximizdə növbəti əlamətdar hadisələrdən biri idi. Ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Avqustun 25-də 20 ailə – 88 nəfər doğma yurdlarına – Zabux kəndinə qayıdıb. Dövlətimizin başçısı və birinci xanımın kənd sakinləri ilə səmimi görüşü zamanı sakinlər bu yerləri cənnətə çevirən, 31 ildən sonra onlara böyük xoşbəxtliyi yaşadan ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı ad günü münasibətilə səmimi qəlbdən təbrik etdilər.



Həmin gün Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən "Laçın Şəhəri Günü" bayram şənlikləri isə maraqlı və yaddaqalan oldu. Burada nümayiş etdirilən müxtəlif tamaşalar, xalq tətbiqi sənəti üzrə ustad dərslər, şəbəkə, həsir sənəti, dulusçuluq, misgərlik, xalçaçılıq, tikmə, papaqçılıq və digər sənət növlərinin də daxil olduğu incəsənət sərgisi və "Laçın mənzərələri" adlı rəsm sərgisi orada olanlarda, eləcə də bu xoş anları televiziyadan izləyənlərdə yüksək əhvali-ruhiyyə yaratdı. Ölkə başçısının və xanımının uşaqlarla, sakinlər və qonaqlarla səmimi münasibəti, hamı ilə tək-tək şəkil çəkdirmələri bu gözəl günə şahidlik edənlərdə bir daha bu mehriban, sadə, səmimi, gülərüz ailəyə böyük heyranlıq oyandırdı.

Həmin gün Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbiri isə bir daha milli musiqimizin, mədəniyyətimizin zənginliyini bütün dünyaya nümayiş etdirdi. Dövlətimizin başçısının tədbirdə çıxışında söylədikləri Ermənistana və ona havadarlıq edənlərə bir mesaj idi : – ***"Heç bir şey bizi yolumuzdan döndərə bilməz... Bu gün dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq".***

Əlli yaşını Ağcabədidə laçınlılarla, 60 yaşını Şuşada qeyd etdiyini fəxarətlə xatırladan, Laçın Şəhəri Günündə bayram tədbirlərində iştirak etməkdən böyük xoşbəxtlik duyduğunu deyən Prezident cənab İlham Əliyev xalqımızın bundan sonra da sülh, əmin-amanlıq şəraitində yaşayacağını, öz doğma torpağında qurub-yaradacağını vurğuladı.

Bayram tədbirində səslənən "Laçınım", "Ay Laçın", "Cənnətim Qarabağ", "Qarabağ şikəstəsi", "Xudayar təsnifi", "Azərbaycan", "Azərbaycanım" və digər vətənpərvərlik mahnıları, milli rəqs, musiqi nömrələri könlümüzü oxşadı, qəlbimizə, ruhumuza dinclik, fərəh bəxş etdi. Bir daha əmin olduq ki, mayəsi, qayəsi, ruhu igidlik, qorxmazlıq, vətənpərvərliklə yoğurulan bu xalqın iradəsi qarşısında heç bir qüvvə dura bilməz.

**Güntac ŞAHMƏMMƏDLİ**

---

*İrəvan xanlığının sonuncu hakimləri olmuş Dəvəli Qacarlarını Naxçıvanın Kəngərli xanları ilə yaxın qohumluq telləri bağlamışdır. Naxçıvan tarixinin XIX yüzilliyin ikinci yarısından üzübəri açılmamış səhifələrini araşdırarkən İrəvan xanlarının varislərindən olan Abbasqulu xan İrəvanskinin adına tez-tez rast gəlirik.*

*Tarixi Azərbaycan torpaqları*

# İrəvan və Naxçıvan xanlarının qohumluq tarixçəsi

Abbasqulu xanın həyatı Naxçıvanla sıx bağlı keçmişdir. Onun həyat yoldaşlarından ikisi Naxçıvandan olmuşdur: general İsmayıl xanın qızı Tərlan xanım və general-mayor II Kalbalı xan Naxçıvanskinin qızı Zərrintac bəyim. Abbasqulu xanın ikinci həyat yoldaşı Tərlan xanımdan 7 övladı doğulmuşdur: Kərim xan, Əli xan, Həsən xan, Xanlar xan, Fəxrəntac xanım, Gövhərtac xanım və Tacı xanım. Təqdim edilən şəkildə Abbasqulu xandan sağda oturan onun qızı Gövhərtac xanımdır, qucağındakı uşaq oğlu Əziz xandır. İkinci cərgədə solda ayaq üstə dayanan ikinci şəxs onun həyat yoldaşı Bəhram xan Naxçıvanskidir.



Bəhram xan 1872-ci ildə Naxçıvan şəhərində İsmayıl xanın oğlu Aman xanın ailəsində anadan olmuşdur. Anası Xanbikə Xurşidbanu Natəvanın qızıdır. Uşaqlıq illəri 1886-cı ildən etibarən Şuşada keçmişdir. 1899-1904-cü illərdə Naxçıvan şəhər polis pristavının köməkçisi işləmişdir. 1898-1903-cü illərdə Naxçıvan şəhərindəki müsəlman ibtidai məktəbinin fəxri nəzarətçisi də olmuşdur. Bəhram xanın kollej, katib, asessor, titulyar müşavir, yəni saray müşaviri olması haqqında da məlumat vardır. 1906-1909-cu illərdə isə o, Naxçıvan şəhərinin starostası olmuşdur.

1919-cu ilin yanvar ayından Naxçıvan Araz-Türk Respublikasının xarici işlər naziri, 1919-cu ilin avqustundan Naxçıvan şəhərində Cənub-Qərbi Azərbaycan general-qubernatorunun köməkçisi işləyən Bəhram xan həmin ilin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinin Lənkəranda tam səlahiyyətli nümayəndəsi təyin edilmişdir. 1920-ci ildən İrana mühacirətə gedən Bəhram xan Səlmasda və Təbrizdə yaşamışdır. O, Culfa-Təbriz dəmir yolunda yoxlayıcı işləməklə bərabər, həm də "Müstəqil Qafqaz" təşkilatının üzvü olmuşdur.

Fotoşəkildə ikinci cərgədə Bəhram xandan sağda ayaq üstə duran Abbasqulu xanın oğlu Həsən xan, onun qarşısında oturan qadın isə həyat yoldaşı Nuraleyin xanımdır. Rus hərbi şərqşünası K.N.Smirnov yazır ki, Abbasqulu xanın oğlu Həsən xan 1934-cü ildə İrəvanda yaşamışdır. Amma Həsən xanın oğul nəvəsi Turhan Turqutun dediyinə görə, onun ata babası Həsən xan 1927-ci ildə İrana, sonra isə Türkiyəyə mühacirət etmişdir.

Yeri gəlmişkən deyək ki, bu tarixi fotoşəklin doğru-dürüst araşdırılmasına Turhan Turqut köməklik göstərmişdir. Onun dediyinə görə, Həsən xan 1898-ci ildə Bəhmən Mirzə Qacarın qızlarından Nuraleyin xanımla ailə qurmuşdur. Bu nikahdan onların 5 uşaqları olmuşdur: Hüseyn xan, Fərid xan, Ruhsarə, Sami və Adilə xanım. Həsən xanın böyük oğlu Hüseyn xan 1900-cü ilin noyabr ayında İrəvan şəhərində doğulmuşdur. O, İrəvanda gimnaziyanı bitirmişdir. 1917-ci ildə Rusiyada çarizmin yıxılmasından və bolşeviklərin hakimiyyəti silahlı yolla ələ keçirməsindən sonra erməni daşnaklarının terrorundan yaxa qurtarmaq üçün Həsən xan ailəliklə Naxçıvana köçmüşdür. Bir müddət Naxçıvanın müdafiəsi uğrunda döyüşən Həsən xanın oğlu Hüseyn xan sonralar Türkiyəyə getmiş və Osmanlı ordusunda zabit kimi hərbi xidmətə başlamışdır. Türkiyə ordusunun apardığı döyüşlərdə fərqlənən Hüseyn xan "Dəmir Hilal" nişanı ilə təltif edilmişdir. Sonrakı döyüşlərdə şücaətinə görə onu "İstiqlal" medalı ilə təltif etmişlər.

Müharibə qurtardıqdan sonra Ankarada mühafizə alayında hərbi xidmətini davam etdirmişdir. 1930-cu ildə hava qüvvələrində hərbi xidmətə başlayan Hüseyn xan Fransaya ikiilliyə ezam olunur. 1932-ci ildən 1946-cı ilədək hərbçi təyyarəçilərin yetişdirilməsində əlindən gələni əsirgəmir. Türkiyənin hava qüvvələrində çox sevilən, əfsanəvi bir zabitdən çox, həm də dərin zəkası ilə tanınır. 1960-cı ildə ona general hərbi rütbəsi verilir. Sonralar istefaya çıxan Hüseyn xan 1971-ci ildə Ankarada vəfat etmişdir.

Hüseyn xan 1936-cı ildə Ləman adlı qızla ailə qurmuş, Nur və Turhan adlı iki uşağı olmuşdur. Onlardan biri –1940-cı ildə doğulan Nur Ümit Arik adlı diplomatla ailə qurmuşdur. Digəri Turhan Turqutdur ki, 1946-cı ilin iyul ayında Türkiyənin İzmir şəhərində doğulmuş və Ankara Universitetinin Hüquq fakültəsini bitirmişdir.

Fotoşəkildə ön cərgədə soldan birinci Abbasqulu xanın oğlu Xanlar xandır, qucağındakı isə oğludur. Abbasqulu xanın qarşısında oturan isə sonbeşik qızı Tacı xanımdır. O, Maku sərdarının nəvəsi Əlixanla ailə qurmuşdur. Əlixanın anası isə general-mayor II Kalbalı xanın qızı Şahbəyimdir.

Abbasqulu xandan solda oturan qızı Fəxrəntac xanımdır. Arxa cərgədə solda ayaq üstə dayanan Rəhim xan Naxçıvanski balaca qızı Xurşidlə, ondan sağdakı isə Fəxrəntac xanımın həyat yoldaşı Cəfərqulu xan Naxçıvanskidir. Fəxrəntac xanımın yanındakı Cəfərqulu xanın ikinci həyat yoldaşıdır. Fəxrəntac xanımın qarşısında oturanlar onun qızı Nazlıbəyim, oğlu III Kalbalı xandır.

Abbasqulu xanın böyük oğlu Həsən xan Türkiyənin Əskişəhərində 1956-cı ilədək yaşamış və orada da vəfat etmişdir. Onlar Türkiyədə Turqut familiyasını qəbul etmişlər. Turhan Turqutun dediyinə görə, babası Həsən xan deyirmiş ki, biz Turqutlar soyundanıq. Yəqin ki, Turqutlar Qacarların Türkiyədə yaşayan bir qolu olmuşdur.

Abbasqulu xan İrəvanski 1905-ci ildə İrəvanda və Naxçıvanda xalqı başına toplayaraq erməni daşnaklarına qarşı vuruşmuş, müsəlmanların İrəvandan köçürülməsinin qarşısını almışdır. Onun birinci həyat yoldaşı Bilqeyis xanımdan 3 övladı – 2 oğlu və 1 qızı olmuşdur. Böyük oğlu Əli xanı evdə Ağa xan çağırırmışlar. Əli xan məşhur hərbçi kimi tanınmış, 1918-ci ildə Naxçıvanın müdafiəsində vuruşmuş, sonra qardaşı Kərim xanla Kabardaya getmişdir. Onun Bülbül xanım adlı qızı olmuş və bir müddət Naxçıvanda yaşamışdır.

Abbasqulu xanın ikinci oğlu Böyük xanın (əsl adı Məmmədqulu xandır) arvadı Tovuz xanım Naxçıvanskaya İsmayıl xanın oğlu Bəhman xanın qızıdır. Tovuz xanımın anası Çimnaz xanım general-mayor II Kalbalı xanın qızıdır. Məmmədqulu xanla Tovuz xanımın 7 övladı olmuşdur: Nazxanım, Yəməntac xanım, Mehdiqulu xan, Əfşan xanım, Allahyar xan, Davud xan və Nəcəf xan.

Allahyar xan 1919-cu ildə Naxçıvanda erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşdur. Sovet hakimiyyəti illərində o, Leninqradda (indiki Sankt-Peterburqda) Tibb İnstitutunda oxumuşdur. 1937-ci ildə repressiyanın qurbanı olmuşdur.

Hər dəfə Naxçıvanın mərkəzində Cəmşid xan Naxçıvanskinin ev-muzeyinə gələndə bu tarixi fotoşəklin qarşısında dayanır, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın azadlığı, müstəqilliyi uğrunda qəhrəmanlıqla döyüşmüş mərd oğulları xəyalən xatırlayıram.

Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin müdrik kəlamı qulaqlarımda səslənir: ***"İrəvan xanlığı var, Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox, orada ermənilər olubdur. Amma, həqiqətən, İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, dünyada nələr var".***

*Yuxarıda haqqında söhbət açdığımız tarixi fotoşəkil də İrəvan və Naxçıvan xanlarının bir-birlərinə çox yaxın və sədaqətli olduqlarını təsdiqləyən orijinal arxiv sənədidir. Fotoşəklin arxasında çəkildiyi tarix rusca qeyd edilmişdir: "Naxçıvan, 1906".*

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

Təhsil millətin gələcəyidir



# "Naxçıvan" Universiteti: *yeni çağırışlar və yeni hədəflər*

*Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi və yüksəldilməsi, Azərbaycan gənclərinə aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanlarının yaradılması günümüzün aktual və mühüm məsələlərindən biridir. Məhz bu nöqteyi-nəzərdən yanaşaraq Azərbaycan ali təhsil sisteminin bərabər və tamhüquqlu subyekti kimi "Naxçıvan" Universitetində də, xüsusilə 2022-2023-cü tədris ilinin II yarım ilindən etibarən tədris prosesinin təşkili, təlim prosesinin günün tələbləri səviyyəsində qurulması istiqamətində adekvat addımlar atılır.*



Təhsil sisteminin inkişafı istiqamətində qarşıya qoyulan tələblərə uyğun olaraq son aylarda universitetdə təlim-tədris prosesinin gedişində şəffaflıq təmin edilmiş, əmək bazarının tələblərinə və dünya standartlarına uyğun kadrların yetişdirilməsi yönündə işlər görülməyə başlanmışdır. Belə ki, "Naxçıvan" Universitetində dünya ali təhsil ocaqlarının tətbiq etdiyi təcrübə və layihələrdən – müəllim və tələbə mübadiləsi, ikili diplom və MBA proqramlarından istifadə yönündə məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilməkdədir. Bir faktı qeyd edək ki, yuxarıda vurğuladığımız hədəflərə nail olmaq üçün ölkə daxili və ölkə hüdudlarından kənarda fəaliyyət göstərən universitetlərlə birgə əməkdaşlıq protokolları imzalanmışdır. Bunun başlıca səbəblərindən biri "Naxçıvan" Universitetinin nəinki ölkə hüdudlarında, hətta onun ölkə hüdudlarından kənarda da tanınmasıdır. Başqa sözlə desək, "Naxçıvan" Universitetinin Türkiyə Ali Təhsil Şurası tərəfindən tanınması universitetimizin qardaş ölkə universitetləri ilə əməkdaşlığında geniş imkanlar və üfüqlər açmışdır. Türkiyənin Qars Qafqaz Universiteti, Eskişəhər Osman Qazi Universiteti, Sivas Cümhuriyyət Universiteti və bir sıra digər universitetləri ilə birgə əməkdaşlıq məsələlərinin müzakirəsi qeyd etdiklərimizin bariz nümunəsidir. Bütün bunlarla yanaşı, "Naxçıvan" Universitetinin İspaniya, Litva, Makedoniya, Özbəkistan və digər ölkələrin ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlığı istiqamətində müzakirələr hazırda davam etməkdədir.



Bir sözlə, "Naxçıvan" Universitetində həyata keçirilən dəyişikliklərin başlıca qayəsi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil ocağında təhsilin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsidir. Bu baxımdan "Naxçıvan" Universitetində müəllim və tələbə mübadiləsi, ikili diplom və MBA proqramlarının tətbiqinin təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Tələbə mübadiləsi proqramı "Naxçıvan" Universitetinin öz tələbələrinə aparıcı yerli universitetlərin və inkişaf etmiş ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanlarının yaradılması istiqamətində atdığı addımların təzahür formalarından biridir. Bu proqram universitetimizin tələbələrinə "Naxçıvan" Universitetində təhsillərini davam etdirməklə yanaşı, onlara yüksək təhsil haqqı ödəmədən aparıcı yerli və xarici ölkə universitetlərində bir və ya iki semestrlik təhsil almaq imkanı yaradır. Yeni təhsil metodikası və sistemi ilə qarşılaşmağa, yeni insanlarla tanış olmağa, ömürlük dostluqlar qurmağa, müstəqil addım atmağa, təhsilin növbəti pillələrinə yiyələnmək yönündə təcrübə toplamağa imkan verən tələbə mübadiləsi proqramı ölkəmizin və muxtar respublikanın keyfiyyətli insan resurslarına olan ehtiyacını ödəməyə imkan verir. 2022-2023-cü tədris ilinin II yarım ilindən etibarən universitetdə dünya təhsil sisteminin nailiyyətlərinin tətbiqi prosesi geniş vüsət almaqdadır. Bu tədbirlər çərçivəsində bəhs olunan dövrdə Azərbaycanın aparıcı ali təhsil qurumlarından biri olan Azərbaycan Dövlət İqtisad Universiteti ilə imzalanan qarşılıqlı əməkdaşlıq protokolu çərçivəsində tələbə mübadiləsi proqramına start verilmişdir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı əldə rəhbər tutaraq "Naxçıvan" Universitetində təhsilin məzmun və keyfiyyət göstəricilərinin ikili diplom proqramları ilə müasirləşdirilməsi istiqamətində məqsədyönlü işlər görülməyə başlanmışdır. "Naxçıvan" Universitetində ikili diplom proqramlarının təsisi və tətbiqi istiqamətində görülməkdə olan işlərin başlıca hədəfi ali təhsil ocağında tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkil edilməsidir. Burada başlıca hədəf universitetin rəqabət qabiliyyətini artırmaq, araşdırma fəaliyyətinin keyfiyyətini yüksəltmək, tədris proqramlarını beynəlmiləlləşdirmək, "Naxçıvan" Universitetinin dünya təhsil məkanında yer tutmasına nail olmaqdır. Məhz bu baxımdan ikili diplom proqramı çərçivəsində Türkiyənin Qars Qafqaz və Eskişəhər Osman Qazi Universitetləri ilə ilkin razılığa gəlinmiş, tədris proqramlarının birgə hazırlanması istiqamətində işlər davam etdirilməkdədir.



Növbəti tədris ilindən tətbiqi nəzərdə tutulan ikili diplom proqramı tələbələrə əmək bazarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnmək, proqram çərçivəsində əməkdaş olan universitetlərin hər ikisi tərəfindən diplom almaq, əldə etdikləri diplomun hər iki universitetin təmsil etdiyi dövlət və dövlət qurumları tərəfindən tanınmaq şansı verəcəkdir ki, bu da universitetin marka dəyərinin yüksəlməsinə və onun məhsulu olan tələbələrin əmək bazarında iş tapma imkanlarının yüksəlməsinə səbəb olacaqdır.

"Naxçıvan" Universitetinin ali təhsil müəssisələri arasında rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində atdığı addımlardan biri universitetdə artıq həyata keçirilməkdə olan MBA (Master Business Administration – Biznesin İdarə Olunması) proqramıdır. 2022-2023-cü tədris ilinin II yarım ilindən universitetimizdə reallaşdırılmaqda olan MBA proqramı üzrə uğurlar əldə edilmişdir. Universitetin 2023-2024-cü tədris ilində MBA proqramı üzrə elan etdiyi sənəd qəbulu uğurla yekunlaşmış və plan üzrə müəyyən olunmuş 20 yer artıq dolmuşdur. Universitetdə təşkil olunmuş MBA proqramı çərçivəsində istənilən ixtisasın bakalavr pilləsini bitirmiş tələbələrə iqtisad elminin incəlikləri, idarəetmə və liderlik bacarıqları, əməliyyatların idarə edilməsi və şirkətlərdə idarəetmə prosesinə rəhbərlik etmə üzrə 2023-2024-cü tədris ilindən başlayaraq elmi və akademik təlimlər veriləcəkdir. Bu təlimlər sayəsində MBA proqramında iştirak edən şəxslər təkmil idarəetmə bacarıqları əldə edə və tutduqları vəzifələrdə daha yaxşı idarəçilik nümayiş etdirə bilərlər. Başqa sözlə desək, MBA proqramı bu proqrama yiyələnmək istəyənlərə iş və şəxsi həyatında üstünlük və imtiyaz əldə etməyi vəd edir. Marketinq və reklamdan biznes idarəçiliyinə, insan resurslarından elektron ticarətə qədər geniş perspektivdə bilik verməyi hədəfləyən MBA proqramı tələbələrə iş dünyasında və əmək bazarında çox aspektli imkanlar təklif edir.

Qeyd edək ki, "Naxçıvan" Universitetində ali təhsilin keyfiyyət parametrlərinin artırılması və bu ali təhsil ocağının marka dəyərinin yüksəldilməsi istiqamətində yeni çağırışlar edilmiş, yeni hədəflər müəyyənləşdirilmiş və universitet rəhbərliyi professor-müəllim heyəti ilə birlikdə bu istiqamətdə yaxın və uzaq perspektivə hesablanmış işləri səylə davam etdirməkdədir.

**Ceyhun MAHMUDOV**
***"Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Sağlam gələcəyə, kamilliyə aparan yolun yolçuları...

*Elm, təhsil insanı mənəvi ucalığa yüksəldən, cəmiyyəti sağlam gələcəyə, bəşəriyyəti kamilliyə aparan yoldur. Təqdirəlayiq haldır ki, hər tədris ilinin sonunda yüzlərlə naxçıvanlı abituriyentlərimiz bu yolda əmin addımlar atmağa müvəffəq olur. Qazanılan nailiyyətlər isə ölkəmizdə həyata keçirilən təhsil siyasətinin tərkib hissəsi olaraq muxtar respublikada innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadənin bəhrəsini ortaya qoymaqla ümumi təhsil səviyyəsinin yüksəlməsindən xəbər verir.*

Artıq çoxlarının intizarına son qoyan builki qəbul imtahanlarının nəticələri min bir zəhmətə qatlaşıb elmi, biliyi həyat amalına çevirməklə gələcək ziya yolunu müəyyənləşdirən gənclərimizə, bu yolda onlara dəstək olan müəllimlərinə, doğmalarına bir dünya sevinc bəxş etdi. Qazanılan nailiyyətlər Babək rayonunun da timsalında ürəkaçandır. Cəhri qəsəbə 1 nömrəli tam orta məktəb qəbul göstəricisinə görə rayon üzrə fərqlənən təhsil müəssisələri sırasında yer alıb. Belə ki, məktəbi bitirən 37 şagird imtahanlarda iştirak edib, onlardan 33-ü keçid balını üstələyib. ***Aytac Əsgərova*** isə babəkli abituriyentlər



arasında ən yüksək nəticə göstərib tələbə adını qazanaraq müəllim və valideynlərinə böyük qürur, sevinc hissi bəxş edib. O qəbul olduğu ixtisas və gələcək planları barədə fikirlərini bölüşərək dedi: – Ümumiyyətlə, çox şagirdin ümdə arzusu gələcəkdə tələbə adını qazanıb Vətənimizə, dövlətimizə, cəmiyyətimizə layiqli vətəndaş, bacarıqlı, bilikli kadr kimi yetişməkdir. Təbii ki, bu istəyə çatmaq böyük zəhmət, məsuliyyət tələb edir. Mən də məktəbdə oxuduğum illərdə bu amal uğrunda çalışmışam. Bu gün sevincliyəm ki, sərf etdiyim əmək nəticəsiz qalmadı. Biz – bugünkü gənclər dəyişən zamanla, dövrlə ayaqlaşmaq üçün müasir texnologiyalar sahəsində püxtələşməliyik. Əks halda, özümüzə perspektivli gələcək qurmağımız, tutduğumuz yolda uğur qazanmağımız mümkünsüzdür. Elə mən də ixtisas seçimi zamanı bu amili nəzərə almışam. Seçimim Naxçıvan Dövlət Universitetinin Kompüter mühəndisliyi ixtisası oldu və topladığım bal mənə istədiyim ixtisasda təhsil almaq fürsəti verdi. Bundan sonra əsas məqsədim seçdiyim ixtisas üzrə peşəkar mütəxəssis kimi yetişməkdir.



***Röya Babayeva*** Güznüt kənd tam orta məktəbini 2022-2023-cü tədris ilində fərqlənmə attestatı ilə bitirib. Ali təhsil müəssisələrinə qəbul imtahanlarında 621,2 bal toplayaraq müəllim və valideynlərinin sevinc, qürur mənbəyinə çevrilib. Tələbə adını qazanan, məktəb illərində də bir sıra uğurlara imza atan Röya fikirlərini belə ifadə etdi: – Hələ ibtidai siniflərdən Azərbaycan dili fənninə böyük marağım olub, elə məhz buna görə qəbul imtahanında III ixtisas qrupunu seçmişəm. 10-11-ci siniflərdə oxuyanda özümü müxtəlif viktorinalarda, bilik yarışlarında sınamışam. Azərbaycan dili üzrə respublika fənn olimpiadalarında uğurlarım olub, muxtar respublika üzrə I-II yerləri tutmuşam. Fəxr edirəm ki, 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar rayonda keçirilən bilik yarışında da 1-ci yerə layiq görülmüşəm. Məktəbdə qazandığım uğurlar, dərslərdə fəallığım, yaxşı oxumağım sayəsində "Qızıl" nişan aldım. İmtahanda da müəllimlərim məndən yüksək nəticə gözləyirdi, onların ümidlərini doğrultduğum üçün sevinirəm. Seçdiyim Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasına qəbul olmuşam, çox sevincliyəm, tələbə adını qazanan hər kəsə uğurlar arzulayıram.

Sirab kənd tam orta məktəbini bitirən 50 məzundan 48-i qəbul imtahanlarında iştirak edib. Onlardan 2-si 500-700 intervalında bal toplayıb. Məktəbin yüksək nəticəsinə görə fərqlənən şagirdlərindən birincisi ***Cilovxan Həsənov***dur. O,



sevincini bizimlə bölüşdü: – İbtidai siniflərdən dəqiq elmlərə marağım böyük olub, riyaziyyatı, coğrafiyanı sevə-sevə oxumuşam. Rəhmətlik müəllimim Malik Həsənov mənə riyaziyyatı sevdirib. Riyaziyyat üzrə keçirilən respublika fənn olimpiadalarında uğurlar qazanmışam, 2022-2023-cü tədris ilinin yekunlarına görə "Gümüş" nişana layiq görülmüşəm. II ixtisas qrupu üzrə topladığım 625,7 bal istədiyim ixtisası seçməyimə imkan verib. Seçimim üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Akademiyasının İqtisadiyyat ixtisasına qəbul olmuşam. Gələcəkdə ən böyük arzum gömrük sahəsində çalışmaqdır. İnanıram ki, ixtisasıma dərindən yiyələnib istəyimə çatacağam. Avqust ayının 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin yüksək bal toplayan məzunlarla görüşü mənim üçün də yaddaqalan oldu.

Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbinin qəbul imtahanlarında uğur qazanan məzunları sırasında ***Səma Qurbanova*** öndə gəlir. O, IV ixtisas qrupu üzrə 579,8 bal toplayıb. Ziyalı ailəsində dünyaya göz açan Səmanın ən böyük arzusu gələcəkdə ixtisaslı tibbi kadr kimi yetişərək ölkəmizin səhiyyəsinə töhfə verməkdir. Söhbət zamanı qazandığı uğurlar və gələcək planları barədə danışdı: – IV ixtisas qrupu üzrə fənlərə, xüsusilə də biologiyaya marağım yuxarı siniflərdə daha da çoxalıb. Bu da səbəbsiz baş verməyib. Belə ki, bacım Xeyrənsə həmin ixtisas qrupu üzrə yüksək bal toplayıb Azərbaycan Tibb Universitetinə qəbul olduqdan sonra mən də qarşıma eyni məqsədi qoydum. Qeyd edim ki, 10-11-ci siniflərdə biologiya üzrə respublika fənn olimpiadalarında uğurlu iştiraklarım olub, muxtar respublika turunda I-II yerlərə layiq görülmüşəm. Qəbul imtahanında topladığım bala və ən çox da öz istəyimə uyğun olaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasını seçdim. Və çox sevinirəm ki, arzuma gedən yolda növbəti addımım da uğurlu oldu, istədiyim ixtisas üzrə tələbə adını qazandım. Söhbətimin əvvəlində də dediyim kimi, bacım və atam bu seçimimdə mənə düzgün istiqamət veriblər. Atam Sahib Qurbanov da səhiyyə sahəsində çalışır. "Şəfa" Özəl Tibb Mərkəzinin stomatoloqudur. İnanıram ki, mən də gələcəyin tanınmış səhiyyə işçilərindən biri olacağam.



*Təhsil, elm yoluna qədəm qoyan, tələbə adını qazanan bütün abituriyentlərə ixtisaslarını mükəmməl şəkildə gələcəkdə öyrənib onları həm ölkəmizə, həm də cəmiyyətimizə faydalı şəkildə, səmərəli formada tətbiq etmələri arzusu ilə...*

✍ **Nail ƏSGƏROV**

# Sənət məbədimiz 140 illik yubileyini bir sıra uğurlarla qeyd edir

*Bu il Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının 140 yaşı tamam olur. Ötən illər ərzində naxçıvanlı və Naxçıvana qonaq gələn teatrsevərlər qarşısında mühüm xidmət göstərmiş bu sənət məbədi şərəfli yol keçmiş, milli teatrımıza verdiyi töhfələrlə böyük bir missiyanı yerinə yetirmişdir. Elə teatrın direktor müavini, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev ilə söhbətimiz də bu barədədir.*

Səməd müəllim bizimlə söhbət zamanı diqqətə çatdırdı ki, teatrın 140 illik yubileyi ilə bağlı bir il öncədən plan və proqramları hazırlanıb. Müsahibimizdən bu mövzuda ətraflı danışmasını xahiş etdik: – Onlardan biri Naxçıvan teatrında yaxşı tamaşaları hazırlamaq və tamaşaçı önünə professional şəkildə çıxmaqdan ibarətdir. Bu istiqamət üzrə planlarımıza uyğun tamaşalar hazırladıq və bu il Naxçıvan teatrı üçün ilk 6 ay çox səmərəli oldu. Belə ki, ilk dəfə 6 ay ərzində bilet satışı ilə, ümumilikdə, 50-yə yaxın tamaşamızla səhnəyə çıxdıq. Qeyd edim ki, bunlardan 3-ü Türkiyədə, 46-sı muxtar respublikada olub. Bu rəqəmlər çox böyük göstəricidir. Fürsətdən istifadə edib teatra olan bu sevgi və diqqət üçün muxtar respublika sakinlərinə, teatrsevərlərə öz minnətdarlığımı bildirirəm.

Həmçinin diqqətinizə çatdırım ki, teatrımızda daha dörd tamaşa hazırlanaraq təhvil verilib. Onlardan ikisi repertuarda olan Aqşin Babayevin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Xilaskar”, Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” tamaşalarıdır. Repertuardan kənar isə Mehmet Ümid Görgülünün “Cibimizdəki dəlilik” və Viktor Hüqonun “Edam məhkumunun son günü” tamaşaları 6 ay ərzində hazırlanıb tamaşaçılara təqdim olunub.

Onu da qeyd edim ki, hazırda iki tamaşa – Elçinin “Şekspir” və Molyerin “Skapenin kələkləri” əsərləri üzərində çalışırıq. Bu əsərlər tamaşaçılara sentyabr ayından, yəni yaradıcılıq mövsümündən sonra təqdim olunacaq. Daha bir tamaşamızın da məşqləri gedir. Bu isə Pərvin Ünalpın “Spiral” əsəridir.

Bu gün teatrda çox böyük bir canlanma olduğunu diqqətimizə çatdıran Səməd Canbaxşiyev deyir ki, bunun səbəbi yaxşı kadrların teatra cəlb olunması ilə bağlıdır. Çünki hər şeyi yaxşı, çalışqan kadrlar həll edir. Teatrımıza yeni təyin olunan baş rejissor Mir Qabil Əkbərov Azərbaycanda ən gənc baş rejissor olmasına baxmayaraq, həm də çox istedadlıdır.

Səməd müəllim Naxçıvan teatrının uzun müddət sonra baş tutan qastrol səfərindən də danışdı: – Ən son qastrol 2019-cu ildə bir günlüyə Qarsda olub. Amma bu cür geniş, uzun müddətdə qastrol səfərimiz olmamışdı. Türkiyəyə səfərə Məhəmməd Ümid Görgülünün və Rasim Aşının dəvəti ilə getmişdik. Qastrola da Rasim Aşının 8-ci Beynəlxalq Dionis Teatr Şənliyi və Təlimi Düşərgəsinə dəvət almışdıq. Biz də ora Naxçıvan teatrının “Cibimizdəki dəlilik” əsəri ilə 10 nəfərlik heyətlə qatıldıq. Burada bir ilk kimi “zeybək”oyununun musiqilərindən istifadə edərək bu oyunu Azərbaycan teatrına ilk dəfə gətirdik. Rəqslərin quruluşu teatrımızın əməkdaşı, aktrisa Ləman Əliyevanın idi. Tamaşanı Sardesdə açıq səma altında oynadıq. Bu da tamaşa tariximizdə bir ilk idi. Bizi fərəhləndirən məqamlardan biri də o idi ki, qardaş ölkənin teatrsevərləri tərəfindən çox yaxşı qarşılandıq. Dionis Teatr Şənliyi və Təlimi Düşərgəsində izləyicilərin, demək olar ki, çoxu Türkiyənin ən tanınmış sənət adamları idi. Tamaşaları 400-dən çox teatrsevər izləyirdi. Daha sonra Sardes qəsəbəsində folklor nümunələrimizdən olan “xınayaxdı” mərasimini və “kos-kosa” oyununu təşkil etdik. Həmçinin nümayiş etdirdiyimiz “Tənzərə” yallısı da izləyicilərdə böyük maraq yaratdı. Səfər zamanı insanlar bizə yaxınlaşır və Azərbaycan incəsənəti ilə maraqlanırdılar. Biz də çalışırdıq ki tamaşalarla yanaşı, incəsənətimiz haqqında da zəngin təəssürat yaradaq. Xüsusən də fəaliyyət göstərdiyimiz Naxçıvan teatrı barədə geniş məlumatlar verir, sənət məbədimizə olan dövlət qayğısından söhbət açırdıq. Səmimi söhbət zamanı onu da qeyd etdik ki, bu il Naxçıvan teatrının 140 illiyi tamam olur. Bu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illik yubileylərinə təsadüf edir. Bura gəliş səbəbimizin də əsasında bu yubileylərin qeyd olunması dayanır. Həmin festivaldan sonra avqust ayının




15-dən 17-nə kimi qardaş ölkənin Foça şəhərinə səfərimiz baş tutdu. Bildirim ki, Foça zəngin turizm potensialına malik kurort, istirahət şəhəridir. Orada “Cibimizdəki dəlilik” tamaşasını səhnələşdirdik. Xüsusi olaraq qeyd edim ki, Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun dəstəyi ilə bizim bütün xərclərimiz qarşılandı. Naxçıvanda fəaliyyət göstərən bir neçə şirkət də bizə köməklik göstərdi. O da qürurverici oldu ki, bu səfərimizdə İzmirlə Naxçıvan arasında mədəni əlaqələr quruldu. Qastrol səfərimizdən sonra Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Türkiyənin Baş konsulu Asip Kaya teatrımızda olub səfər proqramımızla yaxından maraqlandı.

Səməd müəllim söhbətinə belə davam edir: – 18-23 avqust tarixlərində teatrın heyəti geri qayıtsa da, mən qalmalı oldum. Foça şəhərində təşkil olunmuş Beynəlxalq II Meddah və Masal festivalına dəvət edildim. Qeyd edim ki, bu festival Türkiyədə hazırda bir qədər zəifləmiş məddahlıq sənətinin yenidən inkişaf etdirilməsi məqsədilə təşkil olunur. Məddahlıq mövzusu ilə ötən il ilk dəfə tanış olub, bu il bir neçə mövzu üzərində işləmişdim. Türkiyədə bu çox yaxşı sənət növüdür və istəyərdik ki, Naxçıvanda da bu sənəti inkişaf etdirək. Bir mənbədən məlumdur ki, vaxtilə Naxçıvanda da məddahlıq sənət növü olubdur. Bu sənətin unudulmasına əsas səbəb onların dini mövzularda olduqları, milli qürur, milli mənsubiyyət məsələlərini önə çəkdikləri üçün ideologiyanın təsirinə məruz qalmasıdır.

Səməd müəllim diqqətə çatdırdı ki, festivalda Kazım Qarabəkir Paşa və Naxçıvan teatrı mövzularında danışdım. Çıxışım Türkiyədəki tamaşaçılar tərəfindən daha maraqla dinlənildi. Bu da təsadüfi deyildi, çünki 1918-ci ildə Kazım Qarabəkir Paşa Türk-İslam ordusu ilə gəlib erməni dəstələrini məhv etdikdən sonra həmin illərdə teatrla maraqlanmışdır. Onun həmin illərdə teatra qayğısı, Namiq Kamalın “Vətən və Silistirə” əsərini təqdim etməsi, ona bir qədər rejissorluq etməsi, səhnə tərtibatı, hətta geyimlərlə bağlı verdiyi məsləhətlər, ümumilikdə, Naxçıvanda gördüyü işlərlə bağlı çıxışım hamıda heyrət doğurdu. Çünki hər kəs onu türk ordusunda böyük şücaət göstərən, qəhrəmanlıq nümayiş etdirən paşa kimi tanıyırdı. İzah etdim ki, Qarabəkir Paşa həm də rəssamlıq sənəti ilə məşğul olub. Azərbaycanın dahi dramaturqu Hüseyn Cavidlə dost olub, hətta Hüseyn Cavid ona şeir yazmışdı. Bununla yanaşı, çıxışımda iki qardaş dövlət arasında sıx münasibətlər, Naxçıvan şəhərində Kazım Qarabəkir Paşanın adını daşıyan məscidin açılması, Ümummilli Lider Heydər Əliyevin açılışda şəxsən iştirak etməsi barədə də bəhs etdim.

Bu müddət ərzində internet üzərindən yayımlanan üç verilişdə də qonaq qismində iştirak etdim. Buradakı fəaliyyətimiz yerli medianın da diqqət mərkəzində idi.

Söhbətinə davam edən Səməd Canbaxşiyev dedi ki, bu gün iqtisadiyyat ölkəmizin əsas dayağı olsa da, mədəniyyət xalqımızın tarixidir. Əgər tariximizi yaşatmaq istəyiriksə, mədəniyyətin bir qolu olan teatrdan da bəhrələnməliyik. Onların da əsas hədəfi iki qardaş ölkə arasında mədəni əlaqələri birgə inkişaf etdirmək, orada fəaliyyət göstərən yaradıcı heyətin də muxtar respublikaya qastrol səfərlərinə nail olmaqdır.

Söhbətimizin sonunda Səməd Canbaxşiyev bildirdi ki, Azərbaycan Respublikası mədəniyyət nazirinin əmri ilə Naxçıvan Dövlət Milli Dram Teatrı, Naxçıvan Dövlət Kukla Teatrı, həmçinin ölkəmizin bir sıra teatrlarının nəzdində teatr studiyaları yaradılıb. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi, yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədilə atılan bu addım regionlarda teatr sahəsində kadr probleminin aradan qaldırılmasını təmin edəcək.

Bununla bağlı artıq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında “Təməl” Teatr Studiyası yaradılıb. Studiyanın üzvü olacaq yeniyetmə və gənclər bir dərs ili müddətində burada aktyor sənəti, səhnə danışığı, plastika və ritmika və teatr tarixi və nəzəriyyəsi ixtisaslarından dərslər və təlimlər alacaqlar. Təlim-dərsləri də teatrın peşəkar və təcrübəli aktyorları tədris edəcəklər. Eyni zamanda Bakıdan və Türkiyədən ustad dərsləri keçmək üçün mütəxəssislər də dəvət olunacaq.

Təlim-dərslərin sonunda kursu uğurla bitirən müdavimlərə sertifikatlar veriləcək və onların iştirakı ilə hazırlanan tamaşa teatrın repertuarına salınacaq.

*Biz də, öz növbəmizdə, 140 illiyini qeyd edən teatra bundan sonrakı fəaliyyətində uğurlar diləyir, naxçıvanlı teatrsevərlərə mədəni xidmət göstərilməsində müvəffəqiyyətlər arzulayırıq.*

✍ **Aidə İBRAHİMOVA**

*Ailə təsərrüfatlarımız*

# Şəfa mənbəyi böyürtkən

Yayda yetişən, insan sağlamlığı üçün son dərəcə faydalı, mineral və vitamin qaynaqları ilə zəngin olan giləmeyvələrdən biri də böyürtkəndir. Ona daha çox kənd yerlərində çay və yol kənarlarında, bağ hasarlarında rast gəlmək olur. Meyvəsinin toplanması zəhmətli olsa da, ləzzətlə yeyilir və xərçəngdən həzm sistemi xəstəliklərinə qədər bir çox dərdin dərmanı sayılır.

May ayında ağımtıl və ya çəhrayı rəngdə çiçək açan bu hündür, çoxillik, tikanlı kol bitkisinin meyvələrinin rəngi yetkinləşdikdə əvvəlcə yaşıl, sonra qırmızı, sonra qaramtıl olur. Qırmızı olanlar turş olur, qara rəng aldıqda yetişir və şirin olur. İlk meyvələri iyul ayında yetişən böyürtkən oktyabrın sonuna qədər bol meyvə verir. Meyvələri yuvarlaq və ya uzunsov, mis, dəmir, həmçinin maqnezium və kaliumla zəngin olur. Yetişmiş meyvənin ömrü çox da uzun olmur. Yığılıb şüşə qaba qoyulan böyürtkənləri dondurucularda saxlamaqla ömrünü uzatmaq olar.

Bir çox ailələrin dolanışığı üçün də əsas olan bu giləmeyvəni toplayıb, qışa tədarük görən təsərrüfatçılarımız az deyil. Onlardan biri də Ordubad rayon sakini ***Sədaqət Babayeva***dır. Onun dediklərindən: “Böyürtkənin yarpaqları və xüsusilə tumurcuqları, çiçəkləri və kökləri də meyvəsi qədər şəfalıdır. Ona görə də insanlar bu meyvəyə üstünlük verirlər. Boğaz ağrılarına, soyuqdəymaya, şəkərə, qan təzyiqinə faydalıdır, orqanizmdə qanı təmizləyir və ona güc verir.





Müsahibim qeyd edir ki, böyürtkən çiçək açdıqdan, təxminən, bir ay sonra meyvəsi yetişir: – Böyürtkən xüsusi qulluq tələb etməyən, Allahın insanlara bəxş etdiyi şəfalı nemətdir. Uzun, iti tikanlarla örtülü olan meyvəni toplamaq səbir və səriştə tələb edir. Tikanları insanı incitsə də, toplamağına dəyər. Son illərdə tikanları olmayan bağ növlərini becərənlər də var.

Böyürtkənin, əsasən, mürəbbəsini, kompotunu hazırladığını deyən müsahibim onun mürəbbəsinin alıcısının çox olduğunu bildirir: – Böyürtkənə maraq ildən-ilə artır. Milli mətbəxdə müxtəlif şirniyyatların hazırlanmasında, dərman məqsədləri üçün əczaçılıq sənayesində geniş istifadə edilir.

Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının müəyyənləşdirilməsi, onların brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqinin diqqətdə saxlanılması, kənd təsərrüfatı məhsullarının emalı, o cümlədən meyvə qurularının istehsalı sahəsinin dəstəklənməsi və ixrac imkanlarının genişləndirilməsi əsas istiqamətlər kimi müəyyənləşdirilib.

Füsunkar təbiətə malik, hər neməti min bir dərdin dərmanı olan doğma diyarımızda yetişən, sağlamlığımız üçün faydalı olan bu nemətlər saysız-hesabsızdır. Bir qalır onlardan lazımınca istifadə etmək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Seminar keçirilib

Naxçıvan Dövlət Film Fondunda Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Qərbi azərbaycanlılardan Qərbi Azərbaycan bölgəsinə aid yer-yurd adlarının və folklor nümunələrinin toplanması işinin təşkili” adlı seminar təşkil olunub.



Muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində yaşayan, Qərbi Azərbaycandan olan sakinlərdən folklor nümunələrinin toplanması və materialların sistemləşdirilməsi qaydaları haqqında klub müəssisələrində çalışan əməkdaşların maarifləndirilməsi məqsədilə təşkil edilən seminarda çıxış edən Mədəniyyət Nazirliyi Aparatının aparıcı məsləhətçisi Şəfəq Qurbanova bildirib ki, Qərbi Azərbaycandan olan soydaşlarımız öz yurdlarından didərgin salınsalar da, onlar tarixi torpaqlarımıza aid olan folklor nümunələrini yaddaşlarında qoruyub saxlayıb, bu günümüzə daşıyıblar.

Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəzin direktoru Səyyar Məmmədov folklor nümunələrinin, eləcə də yer-yurd adları ilə bağlı materialların toplanması işində qarşıya qoyulan tələblərdən danışıb, slayd nümayiş edilib.

Sonra Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəzin metodisti Türkay Məmmədlinin “Qərbi Azərbaycan bölgəsinə aid folklor nümunələrinin və onomastik vahidlərin toplanmasının əhəmiyyəti” haqqında çıxışı dinlənilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Şərur rayonunun Tumaslı kəndində yaşamış Rəsulov Bahəddin Əli oğlunun adına verilmiş JN-0019 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Payız kəndində yaşamış Məhərrəmov Əli Səfərəli oğlunun adına verilmiş Akt-01A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Arbatan kənd sakini Rəhimov Kərim Ələsgər oğlunun adına verilmiş 0081 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kəndində yaşamış Əliyev Malik Hüseyn oğlunun adına olan JN-115A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 509